**Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi**

**Azərbaycan Respublikasında 7 Fevral 2024-cü ildə keçirilmiş növbədənkənar prezident seçkisinin müşahidələrinin nəticələri üzrə**

# İLKİN RƏY

## I. XÜLASƏ

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT) Azərbaycanda azad və ədalətli seçkilərin keçirilməsi, mülki və siyasi azadlıqların müdafiəsi, vətəndaş cəmiyyəti və demokratik institutların inkişafı sahəsində çalışan qeyri-hökumət təşkilatıdır.

SMDT Azərbaycanda 7 Fevral 2024-cü il növbədənkənar prezident seçkisini uzunmüddətli qaydada - namizədlərin irəli sürülməsi, seçkiqabağı təşviqat, seçki günü səsvermə və səslərin sayılması prosesləri üzrə müşahidə edib.

Seçkiqabağı mərhələ üzrə uzunmüddətli müşahidəni SMDT 15 nəfər müstəqil müşahidəçi ilə əməkdaşlıq şəraitində həyata keçirərək, seçkiqabağı təşviqat üzrə monitorinqin nəticələrinə dair Aralıq Hesabat yayıb. Seçki günü isə SMDT 117 nəfər müstəqil müşahidəçi ilə təsadüfi yolla seçilmiş seçki məntəqələrində statistikaya əsaslanmış metod üzrə müşahidə aparıb.

SMDT hesab edir ki, prezident seçkisinin vaxtından 14 ay öncəyə - 7 fevral 2024-cü ilə təyin edilməsi seçki prosesində bütün maraqlı tərəflərin, o cümlədən siyasi partiyalar və prezidentliyə namizədlik iddiasında olan şəxslərin iştirakını, vətəndaş cəmiyyəti qurumları və beynəlxalq seçki müşahidə təşkilatlarının bu prosesə fəal şəkildə cəlb olunmasını çətinləşdirib.

SMDT qeyd edir ki, 7 fevral növbədənkənar prezident seçkisi sonuncu parlament seçkisindən 3 il sonraya təsadüf etsə də, ötən müddətdə seçki qanunvericiliyi və seçki təcrübəsinin təkmilləşdirilməsi barədə yerli və beynəlxalq müşahidəçilərin tövsiyyələrinin icrası üçün Azərbaycan hakimiyyəti siyasi iradə nümayiş etdirməyib.

SMDT bildirir ki, 7 fevral 2024-cü il növbədənkənar seçkisi ərəfəsində ölkədə ifadə azadlığı, sərbəst toplaşmaq və birləşmək azadlıqlarına məhdudiyyətlər aradan qalxmayıb, siyasi motivli

həbslərin sayı isə artıb. Nəticədə, ötən bir il ərzində siyasi partiyaların sayı iki dəfə azalıb, müstəqil vətəndaş cəmiyyəti qurumları və müstəqil medianın fəaliyyətinə qadağalar, habelə jurnalistlər və ictimai fəallara qarşı siyasi təqiblər çoxalıb. Bununla da, vətəndaş cəmiyyəti qurumları və siyasi partiyaların 7 fevral növbədənkənar prezident seçkisində fəal iştirakı üçün əlverişli demokratik mühit olmayıb.

Seçkiqabağı təşviqat dövründə prezidentliyə namizədlərin seçkiqabağı kampaniyası qarşıduran siyasi qüvvələrin həqiqi rəqabətinə çevrilməyib, ölkədə siyasi canlanma yaratmayıb. Seçicilərə fərqli siyasi baxışlar arasından alternativ seçim imkanları yaranmadığı üçün azad və ədalətli seçkinin başlıca şərti olan siyasi alternativlik təmin edilməyib.

SMDT 7 fevral növbədənkənar prezident seçkilərinin təşkili ilə bağlı seçki komissiyalarının fəaliyyətinə ənənəvi çatışmazlıqlar qeydə alıb. Mərkəzi Seçki Komissiyası seçici siyahılarının tərtibi və dəqiqləşdirilməsi ilə bağlı uyğunsuzluqlara dair iddialara aydınlıq gətirməyib. Müşahidəçilərin qeydiyyatı və seçki dövründə müstəqil qaydada fəaliyyəti üçün bəzi seçki dairələrində məhdudiyyətlər yaradılıb. Seçki günü bəzi müşahidəçilər kənar təzyiqlərə məruz qalsalar da, seçki komissiyaları onların hüquqlarının müdafiəsi üçün təşəbbüslər nümayiş etdirməyib.

SMDT seçki günü seçki məntəqələrinin təşkili və səsverməyə hazırlıqla bağlı cüzi çatışmazlıqlar qeydə alıb. Ancaq səsvermə və səslərin sayılması prosesində ənənəvi çatışmazlıqlar müşahidə olunub. Bu cür pozuntulara adları seçici siyahısında olmayan şəxslərin səsvermədə iştirakı, səsverməyə vətəndaşların qrup halında gətirlməsi və yerli icra strukturlarının seçki prosesinə müdaxiləsi halları daxildir. Bəzi seçki məntqələrində bir şəxsin bir neçə dəfə səsverməsi və səsvermənin gizliliyinin pozulması halları qeydə alınıb. Seçki günü, həmçinin bəzi seçki məntəqələrində müşahidəçilərə və jurnalistlərə təzyiqlər qeydə alınıb. Bu təzyiqlər Məntəqə Seçki Komissiyaları üzvlərinin səsvermənin aşkarlığı və şəffaflığı prinsiplərinə riayət etməməsi şəraitində baş verib.

SMDT ilə əməkdaşlıq edən müşahidəçilər bəzi seçki məntəqələrində seçici fəallığı üzrə göstəricilərin rəsmi rəqəmlərdən xeyli fərqləndiyini qeydə alıblar. Bu cür uyğunsuzluqlar bəzi seçki məntəqələrində bir şəxsin dəfələrlə səsverməsi və seçki qutularına toplu bülletenlərin atılması halları nəticəsində seçici fəallığının süni şəkildə şişirdildiyini iddia etməyə əsas verir.

SMDT-nin seçki öncəsi və seçki dövrü üzrə apardığı ümumi dəyərləndirmə göstərir ki, 7 Fevral 2024-cü il növbədənkənar prezident seçkisi əlverişli demokratik siyasi mühit və həqiqi siyasi rəqabət şəraitinin çatışmaması ilə müşayiət olunaraq, azad və ədalətli seçkilər üzrə milli qanunvericiliyin və beynəlxalq standartların tələblərinə cavab verməyib.

SMDT 7 Fevral 2024-cü il prezident seçkisinin ölkədə müşahidə olunan siyasi durğunluğun aradan qalxması və vətəndaş-dövlət münasibətlərində qarşılıqlı siyasi etimadın yaranmasına rəvac verməsi üçün siyasi motivlərlə həbsdə olan ictimai fəallar və jurnalistlərin azad edilməsini, siyasi partiyalar, vətəndaş cəmiyyəti qurumları və müstəqil medianın fəaliyyətinə maneələrin aradan qalxmasını, Seçki Məcəlləsi və seçki təcrübəsinin Avropa Şurası Venesiya Komissiyası və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun tövsiyyələri əsasında təkmilləşdirilməsini zəruri sayır.

## II. GİRİŞ

SMDT Azərbaycanda azad və ədalətli seçkilərin keçirilməsi, mülki və siyasi azadlıqların müdafiəsi, vətəndaş cəmiyyəti və demokratik institutların inkişafı sahəsində çalışan qeyri-hökumət təşkilatıdır. SMDT 1 dekabr 2008-ci ildə qeydiyyatı ləğv edilmiş Seçki Monitorinq Mərkəzinin (SMM) təsisçiləri tərəfindən yenidən təsis olunub. Qeyd edək ki, 14 may 2008-ci ildə SMM-in qeydiyyatı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əsassız iddiası ilə Xətai Rayon Məhkəməsi tərəfindən ləğv edilib.

Bundan sonra SMM-in hədəf və məqsədləri yönündə SMDT fəaliyyətini davam etdirib və dövlət qeydiyyatına alınması üçün 2009-cu ildə Ədliyyə Nazirliyinə müarciət edib. Ancaq Ədliyyə Nazirliyi SMDT-nin müraciətini təmin etmədiyi üçün məhkəməyə müraciət olunub. Azərbaycan məhkəmə orqanları həm SMM-in, həm də SMDT-nin dövlət qeydiyyatı ilə bağlı müraciətini təmin etmədiyi üçün Avropa İnsan Hüquqları Məhkəməsinə (AİHM) müraciət olunub. AİHM 2 dekabr 2021-ci ildə SMM-in ərizəsi[1], 12 yanvar 2023-cü ildə isə SMDT-nin ərizəsi[2] əsasında dövlət qeydiyyatına alınmaması ilə bağlı qərarlarını açıqlayaraq, bu halları Avropa Konvensiyasının 11-ci maddəsi (birləşmək və toplaşmaq azadlığının) pozulması kimi qiymətləndirib. Ancaq ötən müddətdə Azərbaycan Ali Məhkəməsi AİHM-in bu iki qərarının icrası və SMDT-nin dövlət qeydiyyatına alınması ilə bağlı zəruri hüquqi tədbirlər həyata keçirməyib.

SMDT (keçmiş SMM) 2001-ci ildən Azərbaycanda keçirilən 15 seçkinin monitorinqini həyata keçirib. Seçkilərin monitorinqi ilə bağlı SMDT indiyədək 14000 nəfərdən artıq vətəndaşa 600-dən çox təlim keçib və onların seçki komissiyalarında akkreditə olunmalarına hüquqi-texniki yardım göstərib.

SMDT ATƏT-ə üzv olan ölkələrin vətəndaş cəmiyyəti təşkilatlarını birləşdirən Seçkilərin Monitorinqi Təşkilatlarının Avropa Şəbəkəsi (ENEMO), Şərq Tərəfdaşlıq ölkələrinin Vətəndaş Cəmiyyəti Forumu, Demokratik Seçkilər üzrə Avropa Platformasının (EPDE) və Yerli Seçki Müşahidəçilərinin Qlobal Şəbəkəsinin üzvüdür. SMDT seçkilərin müşahidəsi sahəsində Yerli Seçki Müşahidə Təşkilatlarının Qlobal Bəyannaməsin prinsipləri əsasında fəaliyyət göstərir.

Qeyd edək ki, SMDT əsassız səbəblərdən Ədliyyə nazirliyində dövlət qeydiyyatına alınmadığı üçün MSK-ya akkreditasiya üçün müraciət edə bilmir. Bu baxımdan SMDT ənənəvi olaraq seçki komissiyalarında qeydiyyatdan keçmiş müstəqil müşahidəçilərlə əməkdaşlıq edir.

7 Fevral 2024-cü il növbədənkənar prezident seçkisi elan olunduqdan sonra SMDT fərdi qaydada müşahidəçi olmaq istəyən vətəndaşlara Mərkəzi və Dairə Seçki Komissiyalarında qeydiyyatdan keçməyə, onların seçki qaydaları, müşahidəçilərin hüquq və vəzifələri, habelə tərəfsiz müşahidəçilik üzrə davranış qaydalarına dair məlumatlanmasına yardım edib. Bəzi müşahidəçilər SMDT-nin tərəfsiz müşahidəçiliklə bağlı prinsiplərini qəbul edərək, uzunmüddətli qaydada əməkdaşlıq ediblər.

[1]Bax: Case of of Election Monitoring Centre and others v. Azerbaijan (Application no. 64733/09)
[2]Bax: Case of of Election Monitoring and Democracy Education Centre and others v. Azerbaijan (Application no. 70981/11)

SMDT-nin uzunmüddətli müşahidəçiliyinə seçki prosesinə hazırlıq, namizədlərin qeydiyyatı, seçkiqabağı təşviqat, Mərkəzi və Dairə Seçki komissiyalarının fəaliyyəti və mediada seçki prosesinin işıqlandırılması üzrə monitorinq daxildir. SMDT seçkiqabağı dövrdə 15 nəfər təlim keçmiş uzunmüddətli müşahidəçi ilə əməkdaşlıq edib. Seçkiqabağı təşviqat üzrə monitorinqin nəticələrinə dair SMDT-nin Aralıq Hesabatı 2 fevral 2024-cü ildə yayılıb[3].

Seçki günü SMDT 117 nəfər müşahidəçi ilə bütün ölkə ərazisində səsvermə və səsələrin sayılması prosesini izləyib. Statistikaya əsaslanan müşahidə metodu əsasında təsadüfi yolla seçilmiş 105 seçki məntəqəsində müşahidəçilər gün ərzində seçki prosesini izləyiblər.

## III. HÜQUQİ MÜHİT

7 Fevral 2024-cü il növbədənkənar prezident seçkisi 20 il öncə qəbul edilmiş və dəfələrlə mürtəce dəyişikliklərə məruz qalmış Seçki Məcəlləsi əsasında keçirilib. Seçki Məcəlləsi və seçki təcrübəsinin təkmilləşdirilməsi ilə bağlı Avropa Şurası Venesiya Komissiyası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, Avropa Şurası Nazirlər Komitəsinin və digər mötəbər seçki müşahidə qruplarının tövsiyyələri nəzərə alınmayıb.

2003-cü ilin mayından qüvvədə olan Seçki Məcəlləsinə dəfələrlə əlavə və dəyişikliklər edilsə də, Avropa Şurası Venesiya Komissiyası və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun birgə tövsiyyələri indiyədək nəzərə alınmayıb[4]. Məsələn, 2 iyun 2008-ci ildə Seçki Məcəlləsinə edilən dəyişikliklər nəticəsində seçki müddəti 120 gündən 75 günədək azaldılıb, namizədlərin qeydiyyatı üçün alternativ variant kimi nəzərdə tutulan qeydiyyat depoziti (seçki girovu) ləğv edilib[5]. Bundan sonra 18 iyun 2010-cu ildə Seçki Məcəlləsinə edilən növbəti dəyişikliklə seçki müddəti 75 gündən 60 günədək, seçkiqabağı təşviqat müddəti isə 23 günə qədər azaldılıb. Bu dəyişikliklə yanaşı seçki dövründə qeydə alınmış namizədlərə təbliğat kampaniyasının təşkili üçün dövlət hesabına maliyyə fondunun ayrılması müddəası ləğv edilib.

Seçki Məcəlləsinə irəli sürülən çoxsaylı təkliflər – seçki hüququ pozuntularına görə cavabdeh şəxslərin cəzalandırılması, seçki şikayətlərinin verilmə müddətinin uzadılması, seçki komissiyalarının müstəqilliyinin təmin edilməsi məqsədilə siyasi qüvvələrin paritet iştirak əsasında formalaşması və yerli seçki müşahidəçilərinin onlayn qaydada qeydiyyatı mexanizmləri növbədənkənar seçki ərəfəsində nəzərə alınmayıb.

7 dekabr 2023-cü ildə Azərbaycan prezidenti İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsi və Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq ölkədə növbədənkənar prezident seçkisinin keçirilməsi barədə sərəncam imzalayıb. Xatırladaq ki, növbədənkənar seçkinin təyin edilməsi hüququ milli qanunvericliyə 26 sentyabr 2016-cı ildə keçirilmiş referendumdan sonra gətirilib. Sözügedən referenduma çıxarılan düzəlişlərlə bağlı Avropa Şurası Venesiya Komissiyasının rəyində dəyişikliklərin motivlərinin aydın olmaması,

---

[3] Bax: https://smdtaz.org/wp-content/uploads/2024/02/SMDT_Araliq-hesabat_020224.pdf
[5]Bax - http://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2004)016-e
[6]Bax - https://smdtaz.org/wp-content/uploads/2017/09/SMDT-DH-100917-1.pdf

müzakirələrə parlamentin cəlb edilməməsi və konstitusion düzəlişlərin qüvvəyə minməsi qaydası tənqid edilib[6].

Növbədənkənar prezident seçkisinin keçirilməsi barədə sərəncam tutarlı siyasi ehtiyaclar göstərilmədən və cəmiyyətdə açıq ictimai müzakirələr aparılmadan verildiyindən seçki prosesində bütün maraqlı tərəflərin, o cümlədən siyasi partiyalar və prezidentliyə namizədlik iddiasında olan şəxslərin iştirakını, vətəndaş cəmiyyəti qurumları və beynəlxalq seçki müşahidə təşkilatlarının hazırlığını çətinləşdirib[7].

7 Fevral 2024-cü il prezident seçkisi ərəfəsində qüvvəyə minən iki qanun – "Media haqqında" və "Siyasi partiyalar haqqında" qanunlar ölkədə ifadə azadlığı və birləşmək hüququnu məhdudlaşdırıb. 2022-ci ilin fevralında qüvvəyə minən "Media haqqında" qanun media və jurnalistlərin vahid reyestrinin yaradılmasını və media qurumlarının fəaliyyətini tənzimləyən bir sıra yeni müddəalar nəzərdə tutur. Müstəqil jurnalistlər bu qanunun qəbulunu ölkədə azad medianın nəzarətə alınması cəhdi hesab ediblər. Avropa Şurası Venesiya Komissiyası bu qanunun ifadə azadlığı ilə bağlı Avropa standartlarına uyğun gəlmədiyini ifadə edib[8].

2023-cü ilin yanvarında "Siyasi partiyalar haqqında" yeni qanunun qüvvəyə minməsindən sonrakı 6 ay ərzində Azərbaycanda fəaliyyət göstərən 58 siyasi partiyadan 29 partiya fəaliyyətini dayandırıb. Bəzi partiyalar bunu yeni qanunun yaratdığı məhdudlaşdırıcı hallarla izah ediblər. Qeyd edək ki, yeni qanunda partiyanın qeydiyyatı üçün tələb edilən üzv sayı 5 min nəfərə qaldırılıb. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu ilə Avropa Şurası Venesiya Komissiyasının Siyasi partiyalar haqqında qanunla bağlı birgə rəyində qeyd edib ki, yeni qaydalar həm beynəlxalq insan hüquqları sənədlərində, həm də milli Konstitusiyada təsbit olunmuş birləşmək azadlığı hüququnun təmin olunması ilə bağlı ciddi narahatlıqlar yaradır[9].

## IV. SEÇKİQABAĞI SİYASİ MÜHİT

7 Fevral 2024-cü il növbədənkənar prezident seçkisi ərəfəsində siyasi təqiblər və siyasi azadlıqların kəskin şəkildə məhdudlaşdırılması müşahidə olunub.

Seçki öncəsi hüquq müdafiə təşkilatlarının yaydığı hesabata görə, ölkədə 200-dən artıq şəxs siyasi motivlərlə həbsdədir[10]. SMDT-nin həmçinin açıq mənbələr hesabına toladığı məlumatlara görə 2023-cü ildə 85 nəfər siyasi motivlərlə cinayət məsuliyyətinə cəlb edilib və barələrində həbs qəti-imkan tədbiri seçilib[11]. Bununla yanaşı 2023-cü il ərzində siyasi motivlərlə inzibati qaydada həbs olunan şəxslərin sayı 39 nəfər olub ki, bu da müxalif səslərə qarşı repressiv tendensiyanı göstərir.[12]

Xatırladaq ki, 2023-cü ildə müxtəlif ittihamlarla həbs edilən şəxslər arasında Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri, tanınmış iqtisadçı alim Qubad İbadoğlu və Demokratik Qüvvələrin Milli Şurasının üzvü, keçmiş siyasi məhbus Tofiq Yaqublu da var. Bəzi müşahidəçilərə

---

[7]Avropa Şurası Venesiya Komissiyasının rəyi - http://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2016)029-e
[8]SMDT Bəyanat, 12 dekabr 2023-cü il - https://smdtaz.org/wp-content/uploads/2023/12/SMDT-b%C9%99yanat-12122023.pdf
[9]Draft Joint Opinion on the Law on Media: https://www.venice.coe.int/webforms/documents/?pdf=CDL(2022)017-e
[10] Joint opinion of the Venice Commission and the OSCE/ODIHR on the Law on political parties, https://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2023)007-e
[11] Siyasiməhbusların yeni siyahısında 254 nəfər var, Amerikanınsəsi, 1 dekabr 2023, https://www.amerikaninsesi.org/a/7380030.html
[12] SMDT, SiyasimotivlihəbslərədairİllikFakt-Xülasə - https://smdtaz.org/wp-content/uploads/2024/01/fakt-xulas%C9%99-2023.pdf

görə Qubad İbadoğlunun həbsi onun növbədənkənar prezident seçkisində müxalif siyasi qüvvələrin təmsilçisi kimi iştirakdan məhrum qoyub.
Seçki öncəsi total siyasi təqiblərə məruz qalan Abzas Media qrupunun 6 əməkdaşı[13], Kanal13 Onlayn TV-nin isə rəhbəri Əziz Orucov[14]həbs olunub.

Azərbaycanda siyasi motivli həbslərlə bağlığı olan Avropa Şurası Nazirlər Komitəsinin nəzarətindəki Məmmədli qrupu işləri üzrə 2020-ci ildən bəri hər hansı müsbət addım atılmayıb. Xatırladaq ki, bu Məmmədli qrupuna daxil olan işlər Azərbaycanda 2013-2016-cı illərdə vətəndaş cəmiyyəti fəallarının, jurnalist və hüquq müdafiəçilərinin fəaliyyətilərinə və hökumətə qarşı tənqidi mövqelərinə görə siyasi təqiblərə və həbslərə məruz qalması ilə bağlıdır. Bu qrupda hüquq müdafiəçiləri Anar Məmmədli, İntiqam Əliyev, Arif və Leyla Yunusların, araşdırmaçı-jurnalist Xədicə İsmayılova, ictimai fəallar Qiyas İbrahimov və Bayram Məmmədovun işləri yer alır[15].

2013-2014-cü illərdə QHT-lər və Qrant haqqında qanunlara mürtəce müddəaların əlavə edilməsi nəticəsində vətəndaş cəmiyyəti təşkilatlarının (VCT) fəaliyyətinə yaranan məhdudiyyətlər aradan qalxmayıb. Adıçəkilən qanunların məhdudlaşdırıcı xarakteri həm VCT-lərin yaranması, həm müstəqil qaydada fəaliyyəti, həm də ictimai təşəbbüslərinin milli və xarici donorlar vasitəsilə maliyyələşməsini çətinləşdirib.

Hüquqi normalarla yanaşı 2013-cü ildən başlayaraq, vətəndəş cəmiyyəti fəallarına qarşı aparılan siyasi repressiyalar və qarayaxma kampaniyası ölkədə müstəqil vətəndaş qruplarının sıradan çıxması, hökumətin siyasi nəzarətinə keçməsi, institutsional bacarıqlarının itirilməsi və mühacirətə getməsi ilə müşayiət olunub.

Növbədənkənar prezident seçkisi öncəsi Caspian Platforumun təsisçisi Bəxtiyar Hacıyevin[16], İşçi Masası Həmkarlar İttifaqları Konfederasiyasının üzvləri Afiəddin Məmmədov[17], Elvin Mustafayev[18] və Ayxan İsrafilovun[19] həbsləri son illər vətəndaş cəmiyyəti fəallarına qarşı aparılan siyasi repressiyaların tərkib hissəsi kimi qəbul edilir.

Vətəndaş cəmiyyətinə total siyasi nəzarət tədbirləri nəticəsində bölgələrdə və Bakıda açıq ictimai müzakirələr keçirmək məhdudlaşdırılıb.

Milli qanunvericiliyin və ölkənin beynəlxalq öhdəliklərinin əksinə olaraq, hökümət orqanları müxalifət partiyaları və müstəqil qrupların şəhərin mərkəzində sərbəst toplaşmaq azadlığından istifadə eədərk dinc aksiyalar keçirməklə bağlı müraciətlərinə əsassız səbəblərlə imkan verməyib. Ümumiyyətlə, 2020-ci il parlament seçkilərindən etibarən nə Bakıda, nə də bölgələrdə müxalif siyasi partiyalara küçə yürüşləri və etiraz aksiyaları keçirmək üçün imkan verilib. Müxtəlif qrupların dinc etiraz aksiyalarının qarşısı bir qayda olaraq polis müdaxiləsi ilə alınıb.

[13]Abzas media işiüzrə - https://turan.az/az/siyaset/jurnalist-elnare-qasimova-abzas-media-isi-uzre-saxlanilib-776231
[14]Kanal13 TV işiüzrə - https://www.amerikaninsesi.org/a/7405447.html
[15]Mammadli Group cases v Azerbaijan - https://shorturl.at/botKQ
[16]Daha ətraflı - https://www.bbc.com/azeri/azerbaijan-63947666
[17]Daha ətraflı - https://turan.az/az/cemiyyet/isci-masasi-hemkarlar-ittifaqlari-konfederasiyasinin-sedri-afieddin-memmedov-768135
[18]Daha ətraflı - https://turan.az/az/siyaset/mehkeme-hemkarlar-ittifaqi-fealini-3-il-azadliqdan-mehrumetme-cezasina-mehkum-edib
[19]Daha ətraflı - https://turan.az/az/cemiyyet/ayxan-israfilov-hebs-edilib-yenilenib-768346

## V. NAMİZƏDLƏRİN İRƏLİ SÜRÜLMƏSİ VƏ QEYDİYYATI

Seçki Məcəlləsinə əsasən prezidentliyə namizədlərn müdafiəsi üçün 40 mindən az olmayan sayda seçici imzası toplanmalı və imzalar hər birində ən azı 50 seçici imzası olmaqla azı 60 seçki dairəsini əhatə etməlidir.

MSK-nın rəsmi məlumatına əsasən prezidentliyə namizədlik üçün imza vərəqi götürən 17 iddiaçıdan 10 nəfər imza vərəqələrini geri qaytarmayıb. Ancaq bu siyahıya daxil olan 3 şəxs – Mətləb Mütəllimli, Namizəd Səfərov və Sərvan Kərimov MSK-ya birgə müraciətində bildiriblər ki, prezidentliyə namizədlik üçün müraciətləri vaxtında qəbul edilməyib və onların müraciətləri qanunla müəyyən olunmuş müddətdə, yəni 5 gün ərzində baxılmadığından imza vərqələrini qanunla müəyyən edimiş müddətdə doldurmaq imkanları olmayıb. Bununla yanaşı bildiriblər ki, onlara imza vermiş şəxslər, hakimiyyət orqanları tərəfindən çağrılaraq hədə-qorxulara məruz qoyulmuşlar.

Yeni Azərbaycan Partiyası hazırkı ölkə başçısı İlham Əliyevin namizədliyini irəli sürərək, onun beşinci dəfə ölkəyə rəhbərlik etməsini müdafiə etdiyini açıqlayıb. YAP ilə yanaşı bəzi siyasi partiyalar prezident seçkisində İlham Əliyevin namizədliyini müdafiə etdiklərini, bu baxımdan namizəd irəli sürmədiklərini bəyan ediblər[20].

Müxalif siyasi partiyalardan Müsavat və Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) seçkilərdə iştirak etməmək barədə qərar qəbul ediblər. Hər iki partiyanın açıqlamasında qeyd edilir ki, hazırkı repressiya, kütləvi həbslər və qorxu mühitində ölkədə azad və ədalətli seçkilərin keçirilməsi mümkün deyil.

***MSK-nın qeydə aldığı prezidentliyə namizədlərin siyahısı:***

| Sayı | Namizəd | Siyas mənsubiyyəti | İştirak etdiyi əvvəlki seçkilər |
|---|---|---|---|
| 1 | İlham Əliyev | Yeni Azərbaycan Partiyası | 2003, 2008, 2013 və 2018-ci il prezident seçkiləri |
| 2 | Zahid Oruc | Müstəqil | 2013 və 2018-ci il prezident seçkiləri |
| 3 | Razi Nurullayev | Milli Xalq Cəbhəsi Partiyası | 2018-ci il prezident seçkisi |
| 4 | Fazil Mustafa | Böyük Quruluş Partiyası | 2008-ci il prezident seçkisi |
| 5 | Qüdrət Həsənquliyev | Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası | 2003, 2008, 2013 və 2018-ci il prezident seçkiləri |
| 6 | Fuad Əliyev | Müstəqil | 2008-ci il prezident seçkisi |
| 7 | Elşad Musayev | Böyük Azərbaycan Partiyası | |

Müstəqil müşahidəçilərin verdiyi məlumatlara əsasən, prezidentliyə namizədlər ölkə səviyyəsində fəal imzatoplama kampaniyası təşkil etməyiblər. Bəzi prezidentliyə namizədlərin xeyrinə imzatoplama kampaniyasında yerli icra hakimiyyəti işçiləri, orta məktəb müəllimləri və bələdiyyə işçilərinin cəlb edildiyi bildirilsə də, bu barədə şikayət və ya müraciət edənlər müşahidə olunmayıb.

[20]Bax - https://report.az/daxili-siyaset/azerbaycanda-bir-sira-siyasi-partiyalar-ilham-eliyevin-prezidentliye-namizedliyini-destekleyibler/

## VI. SEÇKİQABAĞI TƏŞVİQAT KAMPANİYASI

7 Fevral 2024-cü il növbədənkənar prezident seçkisi üzrə seçkiqabağı təşviqat kampaniyası Seçki Məcəlləsinə əsasən səsvermə gününə 23 gün qalmış – 15 yanvarda başlayıb və səsvermənin başlanmasına 24 saat qalmış başa çatıb.
Seçkiqabağı təşviqat 2018-ci il prezident seçkisində olduğu kimi həqiqi siyasi rəqabətin olmadığı, alternativ siyasiqüvvələrin çatışmadığı, siyasi canlanma və fəal siyasi müzakirələrin baş vermədiyi prosesə çevrilib.

### a) *Seçkiqabağı təşviqatın mediada aparılması*

Seçkiqabağı təşviqat zamanı ictimai və özəl televiziya kanallarında prezidentliyə namizədlər tərəfindən siyasi hakimiyyətin, o cümlədən indiki prezident, Nazirlər Kabineti və baş nazirin ünvanına ardıcıl və ünvanlı tənqidi çıxışlara rast gəlinməyib.

MSK-nın apardığı püşkatma əsasında İctimai Televizya və Radio Yayımları Şirkətində (İTV) prezidentliyə namizədlər üçün ödənişsiz efir vaxtının yayım cədvəli müəyyənləşib. Bu cədvələ əsasən namizədlər televiziyada və radioda Dəyirmi Masa formatında həftədə 3 dəfə olmaqla efirdən istifadə ediblər. Ümumilikdə, 10 dəfə olmaqla hər dəfə namizədlərə 8 dəqiqə 57 saniyə həm televizayada, həm də radioda efir vaxtı ayrılıb. SMDT-nin İTV-də təşkil olunan 6 telemüzakirə üzrə apardığı müşahidələr göstərir ki, hazırkı ölkə başçısını digər 6 namizədin heç biri tənqid etməyə, onun həqiqi opponenti görüntüsü yaratmağa və siyasi hakimiyyətə iddialı alternativ siyasi qüvvənin təmsilçisi kimi davranmağa çalışmayıb.

### b) *Kütləvi tədbirlər və seçicilərlə görüşlər*

MSK seçkiqabağı təşviqat üçün görüş yerlərinin siyahısını açıqlayıb. Bu siyahıya əsasən namizədlərin seçicilərlə görüş yerləri 139 açıq və 142 qapalı olmaqla ümumilikdə 281 yerdən ibarətdir[21].
SMDT ilə əməkdaşlıq edən müşahidəçilər 27 seçki dairəsində seçkiqabağı təşviqat üçün ayrılmış əksər yerlərin seçicilərlə görüşlər üçün əsasən əlverişli olduğunu müəyyən ediblər. Ancaq bəzi açıq məkanlarda görüş yerlərinin yaşayış məntəqələrindən uzaq məsafədə olduğunu qeyd ediblər.
Seçkiqabağı təşviqat dövründə müşahidəçilər 8 seçki dairəsi hüdudlarında bəzi prezidentliyə naimizədlərlə seçicilərin görüşlərinin təşkilinə yerli icra hakimiyyəti strukturlarının cəlb olunduğunu qeydə alıblar.

Ümumilikdə, bu mərhələdə namizədlərin seçicilərlə kütləvi görüşlərin keçrilməsi üçün açıq məkanlardan geniş istifadə olunmayıb. Namizədlərdən heç biri çoxminli mitinqlər və ya kütləvi görüşlər təşkil etməyib. Bununla da, seçkiqabağı təşviqat ölkə miqyasında sönük qaydada keçərək siyasi canlanmaya səbəb olmayıb.

[21]Seçkilər İnformasiya Mərkəzi, MSK - https://www.msk.gov.az/az/elections/view/1250

## VII. SEÇKİ İDARƏÇİLİYİ

Seçki prosesinin idarəçiliyinin tərkibi hər 5 ildən bir formalaşan seçki komissiyaları həyata keçirir. SMDT-nin müşahidələri göstərir ki, aşağı və yuxarı seçki komissiyaları, o cümlədən də Mərkəzi Seçki Komissiyasının (MSK) fəaliyyəti barədə şikayətlər olsa da, eyni şəxslər uzun illərdir ki, seçki idarəçiliyində çalışır. Məsələn, bəzi komissiya üzvləri seçki pozuntuları barədə Avropa İnsan Hüquqları Məhkəməsinin Nemət Əliyev qrupu işlərinə dair qərarlarında[22] təsdiqini tapan qanun pozuntularına görə məsuliyyət daşısalar da, yenə də seçki idarəçiliyinə cəlb olunduqları üçün seçki idarəetməsi çərçivəsində hesabatlılıq və dürüstlüklə bağlı əhəmiyyətli narahatlığı göstərir.

### *a) Seçicilərin qeydiyyatı*

Seçici siyahıları ilə bağlı MSK-nın açıqladığı rəqəmlərə əvvəlki illərdə olduğu kimi inamsızlıq aradan qalxmayıb. Məsələn, MSK-nın yaydığı son məlumata görə ölkədə 6 milyondan artıq səsvermə hüququ olan vətəndaş var. Ancaq 3 il öncə keçirilən növbədənkənar parlament seçkilərində seçiclərin sayı 5 milyon 238 min nəfər olub. Ötən 3 il ərzində seçicilərin sayında 1 milyondan artıq artımın olmasına dair hələ də məntiqli izahat verilməyib və bu, seçicilərin qeydiyyatı prosesinin dəqiqliyi ilə bağlı şübhələri daha da artırır.

Qeyd edək ki, Dövlət Statistika Komitəsinin ölkə əhalisinin sayı üzrə məlumatına görə, səsvermə yaşı olan (18 yaşdan yuxarı) vətəndaşların sayı 7 milyondan artıqdır. Göründüyü kimi, DSK-nın məlumatı ilə MSK-nın  seçici sayı barədə məlumatı arasında uyğunsuzluq var. Təəsüf ki, MSK bu cür uyğunsuzluqlara dair iddialara aydınlıq gətirməyib.

### *b) Müşahidəçilərin qeydiyyatı*

MSK-da qeydiyyatdan keçən müşahidəçilərin verdiyi məlumata görə bu qurumda akkreditasiya prosesi yubanma ilə müşayiət olunub. Qanunda müşahidəçiliklə bağlı ərizələrin 3 gün müddətinə baxılması müəyyən edilsə də, MSK-da bəzən müşahidəçilərin qeydiyyatı günlərlə yubanıb və bu hal MSK-da müşahidəçilərin qeydiyyatı sistemindəki çatışmazlıqlardan irəli gəlir.

Əvvəlki seçkilərdə olduğu kimi 7 fevral 2024-cü il prezident seçksində də yerli müşahidəçilərdən qeydiyyatını asanlaşdırmaq üçün elektron müraciətlər əsasında akkreditasiya mexanizminin tətbiqinə şərait yaradılmayıb. Nəticədə birdən artıq seçki dairəsi və bir neçə seçki məntəqəsində müşahidəçi olmaq istəyən vətəndaşların MSK və DSK-larda müşahidəçi kimi qeydiyyatı üçün fiziki-texniki imkanları məhdudlaşır, bu prosesi sürətli və asan qaydada həyata keçirilmir.

Bəzi Dairə Seçki Komissiyaları seçki günü müşahidəçi olmaq istəyən vətəndaşalara əsassız olaraq üzərində seçki məntəqəsinin adı və nömrəsi yazılmış lövhəciklər veriblər. Bununla yanaşı bəzi Dairə Seçki Komissiyalarında müstəqil qaydada müşahidəçi olmaq istəyən vətəndaşlara əsassız olaraq iş yerləri, siyasi mənsubiyyəti və müşahidəçiliklə bağlı niyyətləri barədə suallar verilib. Bəzi vətəndaşları müşahidəçilikdən uzaqlaşdırmaq məqsədilə iş yerlərində və təhsil aldıqları müəssisələrdə təzyiqlər edilib.

[22]Daha ətraflı - https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-98187%22]}

## V. SEÇKİ GÜNÜ MÜŞAHİDƏ

### *a) Müşahidə metodologiyası və müşahidəçilərin yerləşməsi*

SMDT Statistikaya Əsaslanan Müşahidə (SƏM) metoduna əsasən seçki günü üçün təsadüfi yolla seçilmiş seçki məntəqələrində müstəqil müşahidəçilərdən məlumatlar qəbul edib.

SƏM metodologiyası üzrə müşahidə ölkə ərazisində statistikaya əsaslanan təmsilçilik yolu ilə qəbul olunduğu üçün toplanmış məlumatlar əsasında seçki prosesinin milli səviyyədə təşkili və keyfiyyəti barədə ictimaiyyətə dəqiq məlumat verməyə imkan verir.

7 Fevral növbədənkənar prezident seçkisinin müşahidəsi ilə bağlı SMDT ölkə üzrə 154 nəfər vətəndaşa MSK və dairə seçki komissiyalarında müstəqil müşahidəçi kimi qeydiyyatdan keçməyə hüquqi yardım edib.
SMDT-nin tərəfsiz seçki müşahidəçiliyinə dair davranış qaydalarını qəbul edən 141 müşahidəçi seçki günü könüllü əməkdaşlıq üçün müraciət eləsə də, seçkiyə iki gün qalmış hökumətyönlü mediada SMDT əleyhinə başlamış qarayaxma kampaniyası 24 vətəndaşı yerli seçki müşahidəçiliyindən çəkindirib. Qeyd edək ki, SMDT-yə qarşı aparılan qarayaxma kampaniyasında əsas məqsədi vətəndaşları seçki günü müşahidəçilikdən çəkindirmək olub.

Seçki günü SMDT 117 nəfər müşahidəçi ilə bütün ölkə ərazisində seçki günü - səsvermə və səslərin sayılması prosesini izləyib.

Bu hesabata SƏM üzrə milli təmsilçilik gözlənilməklə və təsadüfi yolla seçilmiş 105 seçki məntəqəsindən toplanan məlumatlar daxil edilib. Məlumatlar məntəqələrin açılması və lazımi avadanlıqlarla təchiz edilməsi, səsvermə, seçici fəallığı, səslərin sayılması və nəticələrin elan edilməsi mərhələlərini əhatə edib.

Müşahidəçilərdən gələn məlumatlar vahid anket əsasında mütəmadi olaraq onlayn qaydada toplanıb.

### *b) Müşahidəçilərin seçki məntəqələrinə daxil olması və onlara təzyiqlər*

Seçki günü bəzi müşahidəçilərə seçki məntəqlərində müşahidə aparmağa imkan verilməyib. Gün ərzində seçki məntəqələrinin 25 faizində müşahidəçilərə maneələr yaradılıb. Bəzi müşahidəçilər psixoloji və fiziki təzyiqə məruz qalaraq, seçki məntəqələrindən ya çıxarılıb, ya da gün ərzində rahat fəaliyyətinə imkan verilməyib.

Məsələn, 8 saylı Binəqədi birinci seçki dairəsinin 36 saylı seçki məntəqəsində müşahdiəçi olan Selcan Hacı səsvermə zamanı pozuntu hallarına irad bildirdiyi üçün psixoloji təzyiqlərə məruz qalaraq, seçki məntəqəsini tərk etməyə məcbur olub.

111 saylı Zaqatala-Balakən seçki dairəsinin 37 saylı seçki məntəqəsində müşahdiəçi olan Hikmət Vəkilov dəfələrlə həm məntəqə seçki komissiya üzvləri, həm də digər müşahidəçilərin təzyiqilərinə məruz qalıb, sorğu-sual edilib. Müşahidəçi səsvermənin gedişi üzrə qeydlər apardığı üçün təhdid edilib, bir müddət sonra məntəqədən xaric olunub.

37 saylı Qaradağ seçki dairəsinin 9 saylı seçki məntəqəsində müşahidəçi olan Əlibaxış Rəşidzadə və 71 saylı Cəlilabad seçki dairəsinin 47 saylı seçki məntəqəsində müşahidəçi olan Ramazan Tağıyev səsvermənin gedişi üzrə qeydlər apardığı və komissiya üzvlərinə suallar ünvanladığı üçün təzyiqlərə məruz qalıblar. Əlibaxış Rəşidzadə mübahisə zamanı məntəqədə olan şəxslərdən birinin onu şillə ilə vurdğunu bildirib. Hər iki müşahidəçi seçki məntəqəsini tərk etməli olub.

### *c) Məntəqələrin qurulması və açılışı*

Seçki məntəqələrinin təşkili və açılması zamanı müşahidəçilər bəzi çatışmazlıqlar qeydə alıblar. Məsələn, seçki məntəqələrinin 5 faizində seçki qutuları möhürlənməzdən əvvəl boş olması nümayiş etdirilməyib. Müşahidə aparılan seçki məntəqələrinin 25 faizində qeydiyyatda olan seçicilərin sayı elan olunmayıb. Müşahidə edilən məntəqələrin 98 faizi zəruri avadanlıqlarla təchiz olunub, 91 faizində isə səsvermənin gizliliyi üçün şərait yaradılıb.
Müşahidəçilərin olduğu seçki məntəqələrinin 3 faizində səsvermə vaxtından gec başlayıb.

### *d) Səsvermə prosesi*

Müşahidəçilər səsvermə prosesi üzrə monitorinq zamanı bəzi pozuntularla bağlı SMDT-yə məlumat veriblər.

SMDT müşahidəçilərdən toplanmış məlumatları seçki məntəqələrinin sayı və pozuntuların növünə uyğun qruplaşdırıb.

Müşahidəçilərin verdiyi məlumata görə, seçki məntəqələrinin 14 faizində seçici siyahısını imzalamadan seçicilərin səsverməyə buraxılması halları qeydə alınıb. Seçicilərin barmaqları yoxlanılmadan səsverməyə buraxılması və seçicilərin barmaqlarının mürəkkəblə işarələnmədən səsverməyə buraxılması məntəqələrin 46-47 faizində qeydə alınıb.

Adı seçici siyahısında olmayan seçicilərin səsvermədə iştirakı halları müşahidə aparılan seçki məntəqələrinin 42 faizində qeydə alınıb. Bununla yanaşı seçicilərin qrup şəklində məntəqəyə gətirilməsi seçki məntəqələrinin 45 faizində müşahidə olunub.

Seçki məntəqələrinin 31 faizində seçki qutularına topa bülletenlərin atılması, 42 faizində isə bir şəxsin bir neçə dəfə səsverməsi halları qeydə alınıb.

Seçicilərin hər hansı bir namizədin xeyrinə səs verməyə təhrik ediməsi isə seçki məntəqələrinin 20 fazində müşahidə olunub.

### *e) Məntəqlərin bağlanması və səslərin sayılması*

Müşahidəçilər seçki məntəqələrinin 12 faizində səslərin sayılması prosesinin açıq keçirilmədiyini, 43 faizində səsvermənin nəticələrinin protokolda düzgün əks olunmadığını, 46 faizində isə protokolların surətinin müşahidəçilərə verilmədiyini qeyd ediblər.

***f) Seçici fəallığı***

Müşahidəçilərin verdiyi məlumatlar MSK-ın veb səhifəsində seçki məntəqələrində seçici fəallığı üzrə bəzi rəqəmlərdən fərqli olub. Bu cür nəticələr bir çox seçki məntəqəsində pozuntu hallarının müşahidə edilməsi və seçici fəallığının süni şəkildə şişirdildiyini iddia etməyə əsas verməklə, ümumi nəticələrin etibarlılığını şübhə altına qoyur.

SMDT-nin müşahidə etdiyi seçki fəallığı ilə rəsmi rəqəmlər arasında fərq seçki məntəqələrindən asılı olaraq dəyişib. Bəzi seçki məntəqələri üzrə müşahidəçilərin verdiyi rəqəmlərlə rəsmi rəqəmlər arasında 20 %-dən artıq fərq qeydə alınıb.

## V. NƏTİCƏLƏR VƏ TÖVSİYYƏLƏR

SMDT 7 Fevral 2024-cü il növbədənkənar prezident seçkisinin müşahidələrinə dair aşağıdakı ilkin nəticələrə gəlib və tövsiyyələrini müəyyən edib:

***A) Nəticələr:***

- 7 Fevral 2024-cü il növbədənkənar prezident seçkisi ölkədə seçkilərlə bağlı siyasi ehtiyaclar öyrənilmədən, seçkilərin dövriliyi prinsipi qorunmadan, bütün ictimai-siyasi tərəflər öncədən məlumatlandırılmadan təyin edilib;

- Avropa Şurası Venesiya Komissiyası və ATƏT-in Demokratik Təssisatlar və İnsan Hüquqları Bürosu ekspertlərinin verdiyi tövsiyyələr əsasında Seçki Məcəlləsinin, QHT-lər haqqında, Media haqqında və Siyasi partiyalar haqqında qanunların təkmilləşməsi baş verməyib.

- 2020-ci il parlament seçkilərindən ötən müddət ərzində ölkədə siyasi fəaliyyət imkanaları daha da məhdudlaşıb, siyasi motivlərlə həbs edilən şəxslərin sayı artıb. Avropa İnsan Hüquqları Məhkəməsinin siyasi motivli həbslər, ədalətli məhkəmə araşdırması və seçki hüquqlarının pozulması ilə bağlı qərarları Avropa Şurası Nazirlər Komitəsinin israrlı tələblərinə baxmayaraq, icra olunmayıb;

- Son illər ərzində ölkədə siyasi durğunluq daha da dərinləşib, siyasi partiyaların sayı 2 dəfə azalıb, müstəqil vətəndaş cəmiyyəti qurumları və müstəqil medianın fəaliyyətinə qadağalar, habelə jurnalistlər və ictimai fəallara qarşı təqiblər çoxalıb. Nəticədə vətəndaş cəmiyyəti qurumları və siyasi partiyaların 7 fevral növbədənkənar prezident seçkisində fəal iştirakı mümkün olmadığından seçkidə vətəndaşların azad iradəsini ifadə olunması təmin edilməyib.

- Seçkiqabağı təşviqat dövründə prezidentliyə namizədlərin kampaniyası qarşıduran siyasi qüvvələrin həqiqi rəqabətinə çevrilməyb, bununla da seçicilərə fərqli siyasi qütblər və baxışlar arasında alternativ seçim imkanları yaranmayıb. Prezidentliyə namizədlərin İctimai Televiziya və radioda təşkil olunan müzakirələri ölkədə siyasi plüralizmin təmin edilməsi, o cümlədən seçicilərin istəkləri və ehtiyaclarının müzakirəsi üçün yetərli olmayıb;

- Seçkinin təşkili ilə bağlı MSK-nın fəaliyyətində seçici siyahılarının tərtibi, aşkarlığın təmin olunması və yerli seçki müşahidəçilərinin qeydiyyatı yönündə çatışmazlıqlar qeydə alınıb;

- Seçki günü ölkə üzrə seçki məntəqələrində səsvermə zamanı ənənəvi qanun pozuntuları, xüsusən də bir şəxsin bir neşə dəfə səs verməsi, seçicilərin səsverməyə inzibati resurslardan istifadə olunmaqla gətirilməsi, müşahidəçilərə təzyiq halları qeydə alınıb.

- 7 fevral 2024-cü il növbədənkənar prezident seçkisi əlverişli demokratik mühit təmin edilmədən, bərabər və həqiqi siyasi rəqabət imkanları olmadan, Seçki Məcəlləsi təkmilləşmədən və ənənəvi qanun pozuntuları şəraitində baş tutaraq, azad və ədalətli hesab oluna bilməz;

***B) Tövsiyyələr:***

- Siyasi hakimiyyət ifadə azadlığı, sərbəst toplaşmaq və birləşmək hüququnu təmin edilməsi yönündə siyasi iradə nümayiş etdirməli, ölkədəki siyasi durğunluğun aradan qaldırılması üçün siyasi opponentlərinə təzyqiləri dayandırmalı, azad media və müstəqil vətəndaş cəmiyyətinin fəaliyyətinə dözümlü yanaşmalıdır.

- Siyasi motivlərlə həbs edilmiş ictimai fəallar, jurnalistlər və siyasi xadimlərin azad edilməsi təmin edilməli, ölkədə vətəndaş-dövlət münasibətlərinin inkişafı üçün əlverişli demokratik mühit yaradılmalıdır;

- Seçki Məcəlləsi və seçki təcrübəsinin Avropa Şurasının Venesiya Komissiyası və ATƏT-in Demokratik Təssisatlar və İnsan Hüquqları Bürosunun, habelə yerli ictimai-siyasi təşkilatların tövsiyyələri əsasında təkmilləşdirilməsi yönündə siyasi iradə nümayiş etdirilməlidir;

- Seçki komissiyaları seçki günü qeydə alınmış pozuntu halları ilə bağlı səlahiyyətli şəxslərin məsuliyyətə cəlb olunması yönündə müvafiq qərarlarını ictimaiyyətə çatdırmalıdırlar;

- Seçki komissiyaları gələcəkdə seçki prosesində açkarlığın təmin olunması ilə bağlı səylər nümayiş etdirməli, bütün vətəndaşlara seçki prosesini heç bir maneə olmadan müşahidəsi üçün şərait yaratmalıdır.

Bakı şəhəri, 8 fevral 2024-cü il

**<u>Əlaqə:</u>**

Telefon: (+994) 50 333 46 74
E-poçt: emc.az2001@gmail.com
anarmammadli2@gmail.com
Veb: www.smdtaz.org
Facebook: SMDT_AZelections
X: SMDT_EMDS